

Rasim Abdullayev

# MƏN BELƏ DOĞULDUM, BELƏ YAŞADIM

Mən belə doğuldum, belə yaşadım



*Mən böyüdükdə dərk elədim ki, insan ona verilən ömrün fani olduğunu, gec-tez müvəqqəti həyatının bitəcəyini bilə-bilə necə olur ki, daima mübarizə aparır, çətinliklərə sinə gərir, ağır məhrumiyyətlərə dözür və nəhayət–yaşayır, yaradır. Əslində hər bir insanın daxilində bir ümid, bir inam yaşayır. Elə insanın ömrü onun içərisində olan ümidin ömrü qədərdir.*

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi



**RASİM ABDULLAYEV**

# Mən belə doğuldum, belə yaşadım

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 125315

ASPOLİQRAF
Bakı–2022

84(5Aze)
A 14

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 1 aprel 2021-ci il tarixli 33-f nömrəli əmri ilə təsdiq olunmuş Nəşr Planının Tərtibi və Nəşriyyat Məhsullarının Satınalınması üzrə Komissiyanın qərarına əsasən çap olunub.

A14 **Abdullayev Rasim.**
**Mən belə doğuldum, belə yaşadım.** Bakı, “Aspoliqraf”, 2022, 112 səh.

A $\frac{4702060202}{053}$ 2022

**ISBN** 978-9952-564-26-6

©Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, 2022

## MAHİR HƏKİM, MAHİR İNSAN, MAHİR ŞƏHİD…

Adətən, şeir kitablarına “Ön söz” yazan adam əsas diqqətini şeirlərin təhlilinə, poetik düşüncələrin və şairin istedadının oxucuya çatdırılmasına çalışır. Mən bu adəti şüurlu şəkildə pozub əlinizdə tutduğunuz bu gözəl kitabın müəllifindən danışacağam: qısa və aydın. Çünki Rasimin şeirləri o qədər mənalı və sadə, duyğuları o qədər aydın və cəzbedicidir ki, mənim kimi adam yüz çalışsa da, Rasimin özünün dediklərindən artıq heç nə deyə bilməyəcək. Yəni oxucuya təzə bir şey deməyəcək. Rəhmətlik Rəsul Rzanın burada xatırladacağım kiçik bir deyimindən də, hörmətli oxucu məni dərhal başa düşəcək: “Aydındı şeirin dili...” Eynən Rasimin şeirlərinin dili kimi! Ona görə də möhtərəm oxucunu bu aydındilli şeirlərlə başbaşa buraxıb bir neçə kəlmə yaxından tanıdığım Rasim həkimin özüylə bağlı fikirlərimi bölüşməyi daha faydalı saydım. Elə kitabın redaktoru gözəl yazıçı və naşir dostum Mustafa Çəmənli də belə istəyirdi. İstəklərimiz üst-üstə düşmüşdü.

Mənim tanıdığım Rasim dünyanın ən bənzərsiz və ən gözəl bölgəsi Kəlbəcərin göylərə millənmiş Milli kəndində anadan olmuşdur. O kənddə ki orada məşhur və məğrur kişilər yaşayırdı. Hər biri bir el ağsaqqalı olmağa layiq “Təcnis Alı” kimi dünyaca məşhur Aşıq Alı, şair Nəbi, Rasimin babası Seyid Əsədullah, atası Yaqub kişi, təkcə Kəlbəcərdə yox, respublikamızda və hətta onun hüdudlarından kənarda tanınan Milli Nəcəf, məşhur Əlilər – Əmirov Əli, İlyasov Əli, Yusibov Əli, Mənsim kişi, İsaq həkim, rəhmətliyin ilk müəllimləri

Seyfəddin müəllim, Aydın müəllim, Hüseyn müəllim, Salman müəllim, Nəriman kişi, Kərim kişi, şəhidlik zirvəsinə qəhrəmancasına yüksəlmiş Ülfət Kərimov, Mirzə müəllim, Milli Tahir, Əməkdar artist, gözəl muğam ifaçısı Babək Niftəliyev, rəhmətliyin çox yaxın dostu şair Milli Daşqın və bir çox digər dəyərli Milli əhli Rasimin mükəmməl insan, gözəl həkim və istedadlı şair kimi formalaşmasında bilavasitə və yaxud birbaşa xidmət göstərmişlər. Öncə onu deyim ki, Rasim imanlı və inanclı bir atanın, peyğəmbər nurlu ağbirçək bir ananın övladı idi. Rasimi Kəlbəcərin ağır günlərindən – işğalından sonra, daha doğrusu, Mərkəzi Hərbi Hospitalın həkimi işləyəndə tanıdım. Müharibədə qolunu-qılçını itirən, ağır yaralı qazilərimizin bir neçə nəfərini yanına aparmışam, müalicəsinə kömək etməsi üçün müraciət etmişəm. Onun sahəsinə aid oldu-olmadı, bircəsinə də biganə qalmırdı, hər birinə doğma qardaş canıyananlığıyla qayğı göstərir, yaralarına məlhəm olurdu. Hər dəfə də görüşəndə sanki xəcalət çəkirmiş kimi: "Heyf ki, Mahir ola bilmədim" – deyir və göz yaşlarını gizlətmək üçün üzünü yana çevirirdi... Mahiri nəzərdə tuturdu – 24 yaşında Şəhidlik zirvəsində məqam tutmuş sonbeşik qardaşım Mahiri! Təbii, məni də kövrəldirdi və nə qədər qəribə olsa da, mən – şəhid qardaşı ona təskinlik verirdim... Belə hallar bir neçə dəfə təkrar olurdu. Bir dəfə dedim, Rasim, xahiş edirəm belə demə, sən indi bizə şəhiddən daha çox lazımsan, gör nə qədər qazimizi sağaldırsan! Elə Şuşada yaralanan qazilərimizə kömək etmək üçün, sən demə, Şəhidlik zirvəsinə ucalmaq istəyirmiş... O zirvəyə Milli Qartalı kimi şığıdı və illər öncə: "Heyf ki, Mahir ola bilmədim",– deyən Rasim əsl Mahir oldu! Onsuz da,



Mahir insan, Mahir həkim, Mahir şair idi...İndi rahat ruhu Göylərə millənmiş Millinin başının üstündə əsl Milli Qartalı kimi qanad çalır və deyərdim ki, bu əbədiyyən belə də olacaqdır. Çünki uçmaq üçün doğulanlar ölmürlər! Rasim də uçmaq üçün doğulanlardandır! İndi azad Kəlbəcərin aydın səmasında sərhədlərimizi gecə-gündüz göz bəbəyi kimi qoruyan bir Milli Qartalı var! O Qartalın adı Rasimdir – mənim tanıdığım Rasim! Şəhid Rasim, Şair Rasim, Həkim Rasim! Bir vaxtlar əlimiz Kəlbəcərə çatmayanda böyük şairimiz Sücaətin yazdığı bu misralar yaralarımıza qor basırdı:

*Millinin üstündən bədirlənmiş ay*
*Bizim aynabəndə düşürmü görən?..*

İndi arxayınlıqla deyə bilərik: rahat yat, Sücaət, Rasimin ruhunun nuru təkcə sizin aynabəndi deyil, bütöv Kəlbəcəri işıq selinə – İlahi nura qərq edir!

Şeir yazdığını şəhid olandan sonra bildim. Bilə-bilə ki, mən "Azərnəşr"də çalışıram, bircə dəfə də demədi ki, bəlkə, şeirlərimi çap edəsən. Rasim Abdullayev o qədər sadə, saf və təvazökar idi ki... İndi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və nəcib təşəbbüsü sayəsində "Aspoliqraf" nəşriyyatı digər dövlət qurumlarına örnək olası böyük bir layihə ilə təkcə bir şəhidimizin ruhunu şad etmədi, bütün şəhid ailələrinin yarasına azacıq da olsa, məlhəm oldu. Mən də şəhid ailəsi olaraq bu gözəl təşəbbüsə və qayğıkeşliyə görə Mədəniyyət Nazirliyinə və "Aspoliqraf" nəşriyyatına təşəkkürümü bildirirəm!

**ƏLÖVSƏT AĞALAROV,**
Əməkdar jurnalist

## POLKOVNİK-LEYTENANT RASİM ABDULLAYEVİN ÖMÜR YOLU

Rasim Miryaqub oğlu Abdullayev 21 fevral 1975-ci ildə Abdullayev Miryaqub Əsədulla oğlu və Qasımova Nübar Yusif qızının ailəsində, Kəlbəcər rayonunun Milli kəndində anadan olub. 1982-ci ildə Milli kənd orta məktəbinə daxil olub. 1990-cı ilə qədər kənd məktəbində, 1990–1992-ci illərdə isə Kəlbəcərdə 1 №-li məktəbdə təhsil alıb. 1992-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinə qəbul olunub.

1993-cü ildə ailəsi Kəlbəcər rayonundan köçkün düşmüş, Samux rayonunun Qarağaclı kəndində (Qırmızı Samux) məskunlaşmışdır.

Rasim Abdullayev 1998-ci ildə ali təhsilini başa vurduqdan sonra Sumqayıt şəhər 1 №-li xəstəxanada interna keçmişdir.

12 iyul 1999-cu ildə atası Miryaqub vəfat etmiş, Samux rayonunun Qarağaclı kəndində dəfn olunmuşdur.

Əzablı, keşməkeşli həyat, erməni terrorçularının törətdikləri vəhşiliklər Rasim Abdullayevi hərb yolunu seçməyə vadar edir.

2000-ci ildə könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrində həkim kimi xidmətə başlayıb. İlk iş yeri ön cəbhə – Əhmədbəyli hospitalı olub. 2001-ci ildə Baş leytenant rütbəsinə layiq görülüb. 2002-ci ildə ailə həyatı qurub. 9 avqust 2003-cü ildə oğlu Miryaqub anadan olub. 2005-ci ildən Silahlı Qüvvələrin Mərkəzi Hərbi Poliklinikasında terapiya şöbəsində xidmətini davam etdirib. Elə həmin ildə kapitan rütbəsinə layiq görülüb.



Bir müddətdən sonra Mərkəzi Hərbi Poliklinikada terapiya şöbəsinin rəisi vəsifəsində çalışıb.

Xatırladaq ki, Rasim Abdullayev 2005-ci ildən ailəsi ilə birgə Abşeron rayonunun Xırdalan şəhərində məskunlaşmışdır. 12 avqust 2006-cı ildə oğlu İslam anadan olub. 2009-cu ildə mayor rütbəsinə layiq görülüb. 2010-cu ildə müdafiə nazirinin qərarı ilə "Qüsursuz hərbi xidmətə görə" medalı ilə təltif olunub. 2014-cü ildə Rasimi həkim olmağa həvəsləndirən anası Nübar Yusif qızı dünyasını dəyişib. 2013-cü ildə Rasim Abdullayevə polkovnik-leytenant rütbəsi verilib. 2015-ci ildə qardaş Türkiyə Respublikasının Gülhanə Tibb Akademiyasında təcrübə keçərək usta dərəcəsinə layiq görülüb. Elə həmin il müdafiə nazirinin qərarı ilə "Qüsursuz hərbi xidmətə görə 2-ci dərəcəli medal"la təltif olunub. 2016-cı ilin əvvəllərində Gəncə şəhərində Hərbi Poliklinikaya rəis vəzifəsinə təyin olunub. Elə həmin ildə Aprel döyüşləri kimi tarixə düşən Vətən müharibəsində yaralı əsgər və zabitlərə əlindən gələn köməkliyi etmişdir. Bir ildən artıq Gəncədə xidmət etdikdən sonra təkrar Mərkəzi Hərbi Poliklinikada tibb xidməti rəisi təyin olunub. 2018-ci ildə "Silahlı qüvvələrin 100 illiyi medalı" ilə təltif olunub. 2017–2019-cu illərdə burada xidmət edən Rasim Abdullayev müdafiə nazirinin əmri ilə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə tibb xidməti rəisi təyin olunub. 44 günlük Vətən Müharibəsi başlayana yaxın N saylı hərbi hissəyə tibb ximəti rəisi təyin edilib.

Vətən müharibəsi başlayan gündən cəbhə bölgəsində xidmətə başlayıb. Əvvəl Ağcabədi rayonunda, bir neçə gündən sonra isə Füzuli rayonu ərazisində yerləşən hərbi hissədə tibb xidməti təşkil edib. 44 gün ərzində

polkovnik-leytenant Rasim Abdullayev bir an belə işindən ayrılmayıb. Atəşkəs elan edilən günü yaralı hərbçilərə kömək etmək üçün Şuşa şəhərinə yollanan Rasim Abdullayev 10 noyabrda, axşam saatlarında düşmən gülləsinə tuş gələrək şəhid olub. 2-ci Fəxri xiyabanda dəfn edilib.

Allah rəhmət eləsin.



# Şeirlər



*Qəmə mahnı qoşub nəğməkar oldum,*
*Mən belə doğulub, belə yaşadım!*
*Təkcə ayrılıqdan gözlərim doldu,*
*Qalan vaxtı ölə-ölə yaşadım!*



## DEYİRLƏR

Ay oğul, ayıq ol, pis zəmanədi,
İnsan şərəfini satır deyirlər.
Dərk eləmək ağıl işi deyilmiş,
Eşitdim doğubdu qatır deyirlər!

Nadan dayanıbdır üzbəüz budur,
Dönüb oyuncağa ömrümüz budur,
Deyəndə ki, əyri budur, düz budur,
Az danış, yerində otur deyirlər!

Arxamca danışan o başı yekə,
İstəyir Rasimi çirkaba çəkə.
İnsanlıq adına ləkədir, ləkə,
Hiylədə tülküyə çatır deyirlər!



## GƏZDİRİRSƏN

İnanma, düzələn əyri deyilsən,
Baş deyil, çiynində fır gəzdirirsən.
Heç olmasa bir az utan, ya qızar,
Desinlər üzündə ar gəzdirirsən!

Dost dedim, ürəyin darıymış sənin,
Salamın, sağolun çoruymuş sənin.
Gör neçə sifətin varıymış sənin,
Təbəssüm dalında şər gəzdirirsən!

Rasim, yenə şimşək kimi çaxassan,
Sənsə hələ cox evləri yıxassan...
Görən kimin köynəyinə yaxassan,
Əyri əllərinlə kir gəzdirirsən!



## MƏZAR

Hanı bu məzarın ziyarətçisi...
Təklikdən boynunu büküb bu məzar.
Elə köhnəlib ki.., sanki illərin
Tozunu üstünə çəkib bu məzar!

Kimə gileylənsin tənhalığından,
Küsüb taleyinin fağırlığından.
Bəlkə də həsrətin ağırlığından,
Bir gün görəcəksiz çöküb bu məzar!

Başına gül taxdım külək qopardı,
Ay ana, gələcəm, ömür qutardı...
Eşidəssiz öz yanına apardı,
Gözünü Rasimə dikib bu məzar!



## YAŞADIM

Qəmə mahnı qoşub nəğməkar oldum,
Mən belə doğulub, belə yaşadım!
Təkcə ayrılıqdan gözlərim doldu,
Qalan vaxtı ölə-ölə yaşadım!

Yar deyəndə dodaqlarım büzüldü,
Gözümdən üzümə qəhər süzüldü.
Bu ürəyim çırpıldıqca üzüldü,
Vallah məniydim ki, hələ yaşadım!

Rasim can versə də elə yar anar,
Belə sevgi əsrdə bir yaranar...
Hamı elə bilir qırx bir yaşım var,
Gün olub ki, qırx bir ilə yaşadım!



## GƏLMİR

Sənsiz keçən ömrə nə deyim axı,
Heç ömür deməyə dilim də gəlmir...
Xoşbəxt günlərimiz su kimi axdı,
İndi ayım ötmür, ilim də gəlmir...

Yar deyəndə paralanır ürəyim,
Bostan kimi uralanır ürəyim.
Gündə yüz yol yaralanır ürəyim,
Bezdim, sarımağa əlim də gəlmir!

Rasim, ölüb öldürəcəm ölümü,
Ayrılığa bildirəcəm ölümü,
Ta barışıb güldürəcəm ölümü,
Neynim, küsüb gedib ölüm də gəlmir!

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 125315



## HƏSRƏTİN

Yollara tökülüb ölü quş kimi,
Qışın şaxtasına düşüb həsrətin!
Baxıram, baxıram, heç nə görmürəm,
Gözümün bəbəyin deşib həsrətin!

Köhnə yaralarım bir də sulanıb,
Xatirələr kirpiyimə calanıb...
Bu axşam gözümün yaşı bulanıb,
Bu axşam kükrəyib daşıb həsrətin!

Qudurub, yadına salmır dünəni,
Deyirəm, bəlkə də, eşidər səni.
Gəl bizi barışdır, öldürdü məni.
Rasimi tanımır, çaşıb həsrətin!



## BAĞLAMIŞIQ

Məcnun da, Leyli də əfsanə imiş,
Məhəbbət dastanın biz bağlamışıq.
O necə yanmaqdı..! Kərəm kül olub
Biz ki, yana-yana buz bağlamışıq!

Batmadıq, bu sevda olsa da dərin,
Yaratdıq dünyanın ən şah əsərin.
Gündüzlər intizar dağlayan yerin,
Gecələr üstünə duz bağlamışıq!

Rasim, nadan gülər, ağrı-acıdan,
Arı kimi bal çəkmişik acıdan...
Həya eliyəndə qardaş, bacıdan,
Sehrbaz olmuşuq, göz bağlamışıq!



## DÜŞÜB

Könlümü tək sənə verdiyim gündən,
Dünyanın sevgisi gözümdən düşüb.
Haqqı, həqiqəti səndə tapmışam,
Yalanın maskası üzümdən düşüb.

Dağılmış dünyamı yerbəyer elə,
Ya ağart, ya qaralt, birtəhər elə.
Gecəni yaracam hər səhər elə,
Günəşə qığılcım közümdən düşüb!

Rasimə xəyaldın...qarşıma çıxdın...
Bir anda şimşəktək başımda çaxdın!
Dönüb köksümdəki yaraya baxdın,
Dedin xatirədi, nazımdan düşüb!





## QANDI

Nadana üz vermə, üzsüz qalarsan,
Anlamazı nə başa sal, nə qandı.
Boz qanqalı bənövşəyə dəyişməz,
Uzunqulaq zəfəranı nə qandı!

Əhli halı ikiəlli tuturam,
Qəm əhliyəm, sevincimi satıram.
Tələsəndə mən davaya çatıram,
Gecikəndə dava çatır, nə qandı!

Rasim, zərin cahanı var, şeşi var,
Toyuq güdən tülküyosun kişi var.
Biqeyrətin mənimlə nə işi var,
Deyərlər ki, bu axan qan nə qandı!



## QURUYUB

Eşqindən ümidin çiçək açmırsa,
Calaq vurma, budaqların quruyub!
O gözlərin qoşa bulaq kimiydi,
Ürək yanmır, bulaqların quruyub!

Yığ mənə ver, istəmirəm az dərdi,
Heyif, naşı bənövşəni az dərdi...
Sənə desəm, qələm götür, yaz dərdi,
Görəssən ki, barmaqların quruyub!

Ayrılıq Rasimin belin bükübdü,
Bəxtim çaşıb verdiyini tökübdü.
Ürəyinə biganəlik çökübdü,
Dilin dönmür, dodaqların quruyub!



## VERİLƏYDİ

Bəzinə boy-buxun, qamət yerinə,
Bir az namus, qeyrət, ar veriləydi.
Sözdən həyalanıb üzün tutaydı,
Qəlbində sevgiyə yer veriləydi.

Yaradanmı belə qayda qoyubdu,
Qürurun saxlayan dərdin sayıbdı.
Kim ki, həqiqəti görmür, mayıfdı,
Anadan gözləri kor veriləydi!

Rasiməm, adamda baxt da yaxşıdı,
Haram var- dövlətdən yox da yaxşıdı...
Qanmaz qədir bilməz noxda yaxşıdı,
Qanana mirvari zər veriləydi.



## TA...

İndi sən hardasan, hara gedirsən,
Soruşmağa qalmayıbdı üzüm ta.
Özümə təsəlli verməkdən öldüm,
Qısqanclıqdan tükənibdi dözüm ta.

Düşüncəmə iynə batdı bir anlıq,
Hara döndüm, hara baxdım viranlıq.
Ürəyimə çökməyincə qaranlıq,
Dedim sənə iki kəlmə yazım ta.

Rasimi yormayıb kəsəkli yollar,
Həyatımda çox olubdu dolaylar.
İnamımı zədələməz xəyallar,
Qoy dəyməsin xətirinə sözüm ta!



## DƏRDİMİ

Taleyimlə döyüşmüşəm sübhədək,
Bu gecə yuxuda gördüm dərdimi.
Sinəmə çəkdiyi dağı göstərdim,
Ağlatdım dərdimi, yordum dərdimi!

Tutub yaxasından yarı soruşdum,
Bu həsrəti, intizarı soruşdum.
Saçlarıma yağan qarı soruşdum,
Gördüm öldürəcək dərdim dərdimi!

Peşmanlığı baxışından oxudum,
Qucaqladım, ətirini qoxudum.
Gördüm rəngarəngdir, xalça toxudum,
Açıb otağıma sərdim dərdimi!

Rasimi atmadı çətin anında,
O sevdanın xatirədi sonu da...
Çox nadanın, anlamazın yanında,
Gizlədib içimə verdim dərdimi!



## YARAŞMAZ BİZƏ

Elə bil son vaxtlar uşaqlaşmışıq,
Bir-birin sözünü uda bilmirik...
"Kim kimi çox sevir"–sözünün üstə,
Bir eşqi atırıq oda, bilmirik...

Bu gecə yuxuda adam öldürüb,
Gördüm günahkaram, qatil olmuşdum.
Elə əsirdim ki, sanki mən elə–
Sevgimi öldürüb gözdən salmışdım...

Günahkar axtarma, tapılan deyil
Sonunda yenə də yanası sənsən!
Bu kövrək, bu məsum körpə sevdanın,
Atası mənəmsə, anası sənsən!

Bu günə gəlmişik nələrdən keçib,
Acılar dadmışıq, bal itirmişik...
Günümüz olub ki, əsrə bərabər,
Bir anın içində il itirmişik...

Bizim odumuz bir, tüstümüz birdi,
Qonşunun tüstüsü qarışmaz bizə...
Unut keçənləri, mənim əzizim,
Şıltaqlıq eləmək yaraşmaz bizə!



## İNSAN

Bir kökdən yaranıb bütün yaranmış,
Yamanlıq edirsən kim ilə, insan!
Özündən zəifin boynundan basıb,
Zəhərlər içirtmə cam ilə, insan!

İblis şeytanlaşdı etdikcə sitəm,
Sildi günahını tövbəylə Adəm.
Hanı haqq-ədalət – mən ki gəzirəm
Gündüzlər əlimdə şam ilə, insan!

Süleyman hökm etdi əsən küləyə,
Əcəldən bəs macal almadı niyə?
Doldurma qarnını varımdır deyə,
Dünya nemətindən tam elə, insan!

Əqlində hər işdə gətir ALLAHI,
Bil ki, eyləyən var axşam-sabahı.
Çıxar misqal-misqal yetimin ahı,
Əylənmə taleyi kəm ilə, insan!

Rasim, qanunudur bu təbiətin,
Yaranmış dadacaq ölüm şərbətin!
Dünyagörmüş babaların söhbətin,
Yığıb xilqətində cəm elə, insan!



## GÖZLƏRİM

Qara daş ahımdan dillənibdisə,
Qəhər boğazımda göllənibdisə,
Bil ki, uzaqlara zillənibdisə,
Səni gəzir sənə vurğun gözlərim!

Sanma ki asandı, evimi yıxır –
Elə ki həsrətin başımda çaxır...
Gizlincə yaşını qəlbimə sıxır,
Gizlincə quruyur oğrun gözlərim!

Rasiməm, üzümə gülmədi yar da,
Getdi, qışa döndü gələn bahar da...
Sən qapa, torpaq tök, bəlkə, məzarda
Bir azca dincələ yorğun gözlərim!



## OLMUŞUQ

Yana-yana dağ da, biz də,
Köz olmuşuq, köz olmuşuq.
Ağlamışıq, amma qurban
Az olmuşuq, az olmuşuq.

Ana dağlar, bağça-barsız,
Ölməmişik arsız-arsız.
Eh, vəfasız, etibarsız,
Biz olmuşuq, biz olmuşuq.

Rasim, zaman belə düşüb,
Vətən əldən-ələ düşüb,
Qaçqın kimi dilə düşüb,
Söz olmuşuq, söz olmuşuq.



## MƏHƏBBƏT HAQQI

Başqa yerə and içməyə gərək yox,
Denən ki, səninəm, məhəbbət haqqı!
"Sevgi hardadısa, Allah ordadı",
Haqqın dərgahıdır məhəbbət haqqı!

İnanmıram, ibadət də yalandı,
Hədər yerə sədaqət də yalandı,
Tapındığın həqiqət də yalandı,
Qəlbində yoxdursa məhəbbət haqqı!

Rasim, ayrılığın gözünü tökəm,
Gülüb gözlərini gülüşə bükəm...
Əcəl macal verə, cəfasın çəkəm,
Qalmaya boynumda məhəbbət haqqı!



## DAĞLAR

Bir parça bayatı, bir parça layla,
Ver Tərtər gətirsin arana, dağlar!
Bir az da gözyaşı göndər, ağlayım,
Səni and vermişəm Qurana, dağlar!

Bu ocaq köz salıb, hisi ta çıxmır,
Bu necə itkidi yası ta çıxmır,
O qədər hönkürüb, səsi ta çıxmır,
Körpəsin itirən bir ana, dağlar!

Rasiməm, sevincim könüldən getdi,
Can candan ayrıldı, əl əldən getdi,
Perikdi yurdundan el eldən getdi,
Axır ki, qaldınız viranə, dağlar!



## ELƏYİR

Sevincimin ömrü yaman gödəkdi,
Gülsəm...tez həsrətin göz-qaş eləyir!
Nədənsə bir ağır daş olmuşuq biz,
Görəsən kim bizə qarğış eləyir!

O illərin qırovu var telimdə,
Neçə arzum can veribdi əlimdə...
Nəğmələrim vaya döndü dilimdə,
Ayrılıq bülbülü bayquş eləyir!

Rasiməm, bu ömrü bir ilə sürdüm,
Sevgimin bağını saçından hördüm.
Bu gecə Yusifi-Kənanı gördüm,
Gördüm eşqimizə alqış eləyir!



## YADDAŞIMDA

Sən mənim qarşıma çıxanda o vaxt,
Ocaq yandırmısan buz yaddaşımda!
Bir böyük olsaq da, sanki görüşdü
Məktəbli oğlanla qız yaddaşımda!

Ad yazanda həyəcandan əsdiyim,
Yadındamı, daşı daşla kəsdiyim...
Dedim səni qoy anandan istəyim,
Bax həmən gülməli söz yaddaşımda!

Közü kipriyində saxlayan görsəm,
Gözünün bəbəyin dağlayan görsəm,
Nə vaxt ayrılıqdan ağlayan görsəm,
Sevdamız canlanır tez yaddaşımda!

Rasim, sinəm hər gülləden dəlinməz,
İkimiz bir canıq, yarı bölünməz...
Ayrılıq neyləsə adın silinməz,
Eşqinin açdığı iz yaddaşımda!!!



## İTİRDİN

Yaranmışın şahı idin, ey insan,
Heyif şanı, şərafəti itirdin.
Allah peşman olub, şeytan mat qalıb,
Xain çıxdın, əmanəti itirdin!

"Zaman günahkardı" – deyib dəyişdin,
Tamahın doymadı, yeyib dəyişdin.
Tərəzinin gözün əyib dəyişdin,
Haqqı əzib, ədaləti itirdin!

Milçək yaratmadın, fili öldürüb
Fitnə yaydın, yer üzünü böldürüb.
Bir yazığı tay-tuşuna güldürüb,
Adı-sanı, nəcabəti itirdin!

Meydanda igidə at vəfalıymış,
İstəsən lap daşa tut, vəfalıymış.
Hürməz sahibinə it, vəfalıymış,
Sənsə əhdi, sədaqəti itirdin!

Rasim, nadan anlayarmı sözünü!
Gor aparsın nankorun üzünü...
Niyə şöhrət kor elədi gözünü,
O müqəddəs məhəbbəti itirdin!



## GƏRAYLI

Çəmən nədir, çiçək nədir,
Sən də gülsən, mən də güləm!
Kaman kimi inildəyən
Sən də telsən, mən də teləm!

Mənə oldu sənə olan,
Sevinci az, dərdi kalan.
Bir-birinə həsrət qalan,
Sən də əlsən, mən də ələm!

İntizardan qıvrılarıq,
Aman deyib qovrularıq,
Bir meh əssə sovrularıq,
Sən də külsən, mən də küləm!

Biz olmuşuq bəxti çaşan
Ayrılığa mahnı qoşan!
Ah çəkəndə coşub daşan
Sən də selsən, mən də seləm!

Xəyallarda qucaqlaşan,
Arzularda bıçaqlaşan,
Yüyürdükcə uzaqlaşan,
Sən də yolsan, mən də yolam!



## BİR AZ MƏNİ TUT DİLƏ

Saçlarımın ağlığı,
Üzməsin səni belə...
Ürək sızıldadıqca,
Dən düşür qara telə...

Kədər son zəngin çalıb,
Ömrümdən ömür alıb.
Bir ovuc külüm qalıb,
Məhlənizə səpələ...

Rasim, həyat tamaşa,
Tutulmuşuq qarğışa.
Qorxuram ağlım çaşa,
Bir az məni tut dilə...



## HARDASAN, AY KÜSKÜNÜM

Hardasan, ay küskünüm,
Könlüm səni istədi.
Dinmirəm, danışmıram,
Görən deyir xəstədi...

Barışmağa üzüm yox,
Ağlamağa gözüm yox.
Daha məndə dözüm yox,
Kədər dəstə-dəstədi...

Ahımla daş dəlirəm,
Son anımdı, bilirəm.
Bir az tələs, ölürəm,
Rasimin can üstədi..!



## SƏNİ...

Sənə qaçdım, səni görəm,
Tapammadım səndə səni.
Mən özümü səndə gördüm,
Kəşf elədim məndə səni.

Sən məndəsən, mən səndəyəm,
Həm yaxında, həm gendəyəm.
Nə kafirəm, nə dindəyəm,
Zikr edirəm gündə səni!

Rasim, dağı bölən eşqim,
Ahı göylər dələn eşqim,
Ey Allahdan gələn eşqim,
Dərk eləməz bəndə səni!



## MƏNİ

Zaman geri dönə, dədəm sağ ola,
Oturdub yanında, danlaya məni!
Danışam taleyin şikəst anından,
Bezməyə, sonacan dinləyə məni!

Yarda insaf ola, əhdin düz tuta,
Gözümün yaşını yaşına qata.
Gündə yanmaqdansa, bircə ox ata,
Keçə ürəyimdən qanlaya məni!

Rasiməm, sevincim qısadı, qısa,
Heç kimin vüsalı dönməyə yasa.
Üz-üzə gələndə dilimiz susa,
Qəlbin baxışımdan anlaya məni!



## YERİDİ

Baxsan ürəyimə nələr taparsan,
Ora sevdamızın ocaq yeridi!
Bizi istəməyən gözlərdən uzaq,
Əhdini qoyduğum bucaq yeridi!

Dedin eşqimizin yaman günüdü,
Can verir, gözünü yuman günüdü!
Toxunma köksümə, aman günüdü,
Ayrılıq vurduğu bıçaq yeridi!

Rasiməm, qoynumda ilan sürünüb,
Belə zülmət qəbiristanda görünüb!
Yorğan əvəzinə kəfən bürünüb,
Yatağım həsrətin qucaq yeridi!



## GETDİN

İnsanlıq sevgisi öldü qəlbimdə,
Yerində duyğusuz daş qoyub getdin!
Sən gələndə qara idi saçlarım,
Gedəndə ağarmış baş qoyub getdin!

Çox inandım, atılmağı unutdum,
Kor kimi əlindən ikiəlli tutdum...
Mən sənin gözünü silib qurutdum,
Sən mənim gözümə yaş qoyub getdin!

Görünür o sevgi az idi sənə,
Əhdimiz bir quru söz idi sənə,
Rasim bahar idi, yaz idi sənə,
Ömrümə sazaqlı qış qoyub getdin!



## YALANDI

Elə sındırmısan könlümün sazın,
Bir də üzüm çətin gülə, yalandı...
Deyirlər ki, su alovu söndürər,
Sən buzuydun, döndüm külə, yalandı!

Gecələr də al boyandı qanımdan,
Həsrətindən can ayrıldı canımdan.
On-on beş gün ayrılmışdın yanımdan,
Hər saniyə döndü ilə, yalandı!

Bilirəm xoşbəxtsən uzaq şəhərdə,
Məndən qiymətliymiş divanələr də.
Ah-naləmdən alovlanar dəmir də,
Bir ömür yaşayam belə, yalandı!

Qismətimə nişan dedim, toy dedim,
Ürəyimi ürəyinə qoy dedim.
Camalına bədirlənmiş Ay dedim,
Dedim bəlkə mənə qala, yalandı!

Bəs haçan güləcəm, haçan, dünyada?
Mənə qəm libasın biçən dünyada...
Rasimdən gen gəzib, qaçan dünyada,
Məzarımın üstə gələ, yalandı!



## GÖZLƏR

Deyirsən ki, hardan tanıdın məni,
Tez tanıdım, qara gözlər o gözlər.
Aradan keçsə də yüz qış, yüz bahar,
Unudulmaz elə gözlər, o gözlər!

Hərdən ağlayıram yadıma salıb,
Küsəndə könlümü o gözlər alıb...
Bilmirəm yol çəkir, xəyala dalıb,
Özün söylə, kimi gözlər o gözlər!

Sındırdın, qanadsız qoydun qartalı,
Qıymadın dərmanı, gəzdin aralı.
Bu həmin Rasimdi, köksü yaralı,
Neçə ildi səni gözlər o gözlər!



## QAYTAR

Demirəm bir daha sən yaşat məni,
O məni yaşadan günləri qaytar.
Həsrətin buzunu əritməz günəş,
O buzu yandıran gözləri qaytar!

Nə məni yada sal, nə də ki ağla,
Üst-üstə qalansın bu dağ o dağla,
Dedim ürəyimi yadigar saxla,
Demədim sındırıb tez geri qaytar!

Rasiməm, ziliydim, indi bəməm mən,
Qəlbi para-para, gözü nəməm mən.
Onsuz da əzəldən dərd çəkənəm mən,
Sevinci apardın, kədəri qaytar!



## AĞLAYIRAM

Yenə də xəyalım o kəndə getdi...
Məni dindirməyin, qan ağlayıram!
Allah, bir quşca da cürətim yoxdu,
Uçam o dağlara, mən ağlayıram!

O vaxtdan əzablar sel kimi daşıb,
Arzular, diləklər dərdə qarışıb.
Yadıma dumanda azmağım düşüb,
Dağları aldıqca çən, ağlayıram!

Rasiməm, yaramın məlhəmiydi qar,
Əfsus, yaram üstə yara vurdular!
Gündüzlər içimdə, gecələr aşkar,
Gəzib insanlardan gen, ağlayıram!



## OY ANA
(Təcnis)

Bir vaxt gəldin taleyimə o gün sən,
Dedin bəlkə yar diksinib oyana.
Elə baxdın, elə bildim o günsən,
Zülmət oldu, üz çevirdin o yana!

Yadındamı ürəyimə köçən gün,
Didir məni hər ötüşüb köçən gün.
Sən sevindin siz şəhərə köçən gün,
Mən ağladım, qəlbim dedi, oy ana!

Sənsiz kəndi xəzan vurar, qar alar,
Dünya aləm gözlərimdə qaralar,
Gen dolansan, Rasim sönər, qaralar.
Bir də çətin alovlanıb o yana!





## YENƏ DƏ

Yenə də ayrılıq, yenə də nisgil,
Qəm məni qoynuna aldı yenə də.
Yenə gözlərimdə yaş yaşı qovdu,
Alovlu baxışlar laldı yenə də!

Xəyalım gəzsə də şəhəri, kəndi,
Arzum nə dil açdı, nə də ki, dindi!
Sevincim, fərəhim zəhərə döndü,
Dərdim taleyimə baldı yenə də!

Yenə də duymuram baharı, qışı,
Rasiməm, qurumur gözümün yaşı!
Yenə də göynədi qəlbimin başı,
Kim səni yadıma saldı yenə də!



## ƏGƏR BU SEVGİNİ...

Əgər bu sevgini gözümdən salsan,
Sanma özümüzü güldürəcəyəm...
Ən qorxunc qatilə dönəcəm onda,
Səni əllərimlə öldürəcəyəm...

Şair xəyallıyam, kövrəyəm indi,
Amma qan gözümü tutacaq onda.
Balasın itirən analar kimi,
Fəryadım göylərə çatacaq onda!

Arzumun, əhdimin tutub əlindən,
Aparıb hardasa azdıracağam...
Tanınmasın deyə başdaşına da,
Özümün adımı yazdıracağam!

Məni qınayacaq qohum da, yad da,
Baxıb məzlum-məzlum susacaq eşqim.
Bir gün boğazıma kəndiri salıb –
Məzarın üstündə asacaq eşqim!

Səni qorxutmuram, bil ki bu yolda,
Ömür itirmişəm, gün itirmişəm!
"İslanmışın sudan olmaz qorxusu",
SEVGİSİZ – hər şeyi mən itirmişəm!



## DEYİRDİN Kİ...

Yadındamı, ölənəcən mən səni,
Deyirdin ki, sevəcəyəm, sevmədin!
İnan, sənlə yerdə, göydə, yuxuda,
Deyirdin ki, gedəcəyəm, gəlmədin!

Bu sevda da məni bildin, naşımı?
Uşağıydım, daşa vurdun başımı.
Üzümdəki gilə-gilə yaşımı,
Deyirdin ki, siləcəyəm, silmədin!

Səndin onda yaxınım da, yadım da,
Kaş vədlərin qalmayaydı yadımda...
Beş il nədir, hər əzaba yolunda,
Deyirdin ki, dözəcəyəm, dözmədin!

Yadındamı necə yandım oduna,
Bu canımı qurban dedim adına.
Vaxtım olsa sənin baba yurduna,
Deyirdin ki, gələcəyəm, gəlmədin!

Gəl incimə haqlı umu-küsümdən,
Gözlərinə sürmə çəkdin hisimdən.
Qəlbindəki döyüntünü Rasimnən,
Deyirdin ki, böləcəyəm, bölmədin!

## RASİM HƏKİM

### SAİR ƏLQƏMƏ İLƏ DEYİŞMƏ...

Təzə ildə evimizə xoş gəldin,
Açdı qış fəslimiz gül, Rasim həkim.
Qəlbimin əbədi qonağı oldun,
Mümkünsə, hər dəfə gəl, Rasim həkim.

Xoşuna gəldimi kasıb süfrəmiz?!
Pak, halal duz-çörək, qəlbimiz təmiz.
Tale rəhm eylədi, durduq üzbəüz,
Söhbət oldu daşqın sel, Rasim həkim.

Şeir haqq vergisi, o bizlik deyil,
Öz-özünə çiçəklənməz qərənfil.
Gələcək nəslimiz olmasın qafil,
Sənsən nişanəmiz bil, Rasim həkim.

Vətən keşiyində cəmi cavanlar,
İgid keşikçilər, mərd qəhrəmanlar.
Özü-özünə qənim olar düşmanlar,
Siz də şəfa verən əl, Rasim həkim.

Qalibiyyət marşı çalacağıq biz,
Şuşanı, Laçını alacağıq biz,
İstisuda qonaq qalacağıq biz,
Şad ol Rasim həkim, gül Rasim həkim.

Əlqəmənin qəlbi bulanan deyil,
Dəvə xəlbir ilə sulanan deyil,
Ocaq öz-özünə qalanan deyil,
Manqal çat düşsün kül, Rasim həkim.



## AY USTAD

**Rasim həkim:**

– Aldım məktubunu, şair Əlqəmə,
Şeirini şərafət bildim, ay ustad!
Qurbanın, Şəmşirin yadigarısan,
Sizi ziyarətə gəldim, ay ustad!

Dərvişsən, düşmədin şöhrət dalınca,
Haray saldın haqq-ədalət dalınca,
Dedim hara gedim sənət dalınca: –
Tez səni yadıma saldım, ay ustad!

Piranisən, bu ixtiyar sinində,
Dindin, dəniz dalğalandı sinəndə.
O idrakın, istedadın önündə,
Susub xəyallara daldım, ay ustad!

De, bizə gəlirsən, yola gül düzüm,
Ötür intizarla gecəm, gündüzüm.
Nə vaxtdı ürəkdən gülmürdü üzüm,
Sənin xatirinə güldüm, ay ustad!

Söz açdın Şəmşirin dərinliyindən,
Bəhmənin, Əyyubun şirinliyindən.
Titrək əllərinin sərinliyindən
Duyğuma qığılcım aldım, ay ustad!

Yenə gələcəyəm, etmişəm dilək,
O halal süfrəndə kəsdik duz-çörək.
Qismət ola, Kəlbəcərdə görüşək,
Bəndəyəm, gümanda qaldım, ay ustad!

Şöklü Məlik oğuz elin taladı,
Yaltaqlar xəlbirlə divi suladı.
Rasiməm, sinəmdə dərdim uladı,
Vətən deyə-deyə öldüm, ay ustad!

## XINALI KƏKLİK

Necə füsunkarsan, necə bədbəxtsən,
Al-qana batmısan, xınalı Kəklik!
Ölüb ölümə də naxış vurmusan,
Nə gözəl yatmısan, xınalı Kəklik!

Niyə qaçammadın, xəyalım çaşdı,
Yoxsa qanadların kola dolaşdı?!
İnsanlar zalımdı, ürəyi daşdı,
Niyə unutmusan, xınalı Kəklik!

Rasiməm, vüsalım burnumdan gəldi...
Ehh, sənin bəlkə də canın dincəldi!
Vallah ayrılıqdan ölüm gözəldi,
Arzuna çatmısan, xınalı Kəklik!



## MİLLİ DAŞQIN ZİYƏDDİNOĞLU İLƏ ŞEİRLƏŞMƏYİNDƏN

**Milli Daşqın:**

Bir-birindən fərqli yaradıb Allah,
Bu qədər bəşəri, xilqəti, Rasim!
Biz dünya evinin qəm dustağıyıq,
Gəl çəkək baş-başa möhnəti, Rasim!

Qaynardı sinəndə söz kamalınla,
Dolan yer üzünü gəz kamalınla.
Sən də bir Yusifsən öz kamalınla,
Sən də bir Yaqubun həsrəti, Rasim!

Daşqınam, qisməti mən özüm seçdim,
Gah zəhər doldurdum, gah şərbət içdim.
Səhralar dolandım, dəryalar keçdim,
Yoxmuş bu dünyanın ləzzəti, Rasim!

**Rasim Abdullayevin cavabı:**

Yusifim, nə vaxtdır uzaqlardasan,
Yaqubun gözünün yaşıyam, Daşqın!
Yaqub peyğəmbərdi, dözdü, dayandı,
Mən belə çətin ki yaşıyam, Daşqın!



Körpəlikdən arzularım donardı,
Harda qəm var, kirpiyimə qonardı.
Kərəm məni görsə eşqin danardı,
Eşqə yananların başıyam, Daşqın!

Rasiməm, intizar qucaq-qucaqdı,
Çırağım yanmırsa, bu nə ocaqdı?
Kim bilir, hansı sel aparacaqdı,
Dağların bir qara daşıyam, Daşqın!

**Milli Daşqın:**

Ömrümün illəri payıza düşdü,
Baharım qarışıq, qışım qarışıq.
Zalım, nə biləsən sənin əlindən,
Nələr zəhər yedim aşım qarışıq.

Gülməz qəmlərimə ərlər, ərənlər,
Anlar budağımdan kədər dərənlər.
Məni qınamasın sərsəm görənlər,
Ağlım dağınıqdı, huşum qarışıq.

Daşqın nə danışım, nə deyim, düzü,
Gördüm ki, bulanıb bəxtimin gözü.
Xoşuma gəlmədi mənim yer üzü,
Çıxıb gedəcəyəm xoşum qarışıq.



**Rasim Abdullayevin cavabı:**

Arada düşəndə hal-əhval eylə,
Demə yüküm çoxdur, başım qarışıq.
Əlin kirpiyimin həsrətin ovsa,
Ovcuna qan dolar yaşım qarışıq!

Məqamım ucalıb, Fərhada çatdım!
Mən də "qəmi alıb canımı satdım".
Boynundan daş asıb dənizə atdım,
Dərdim üzüb çıxdı daşım qarışıq!

Soyuq qarşılama Rasim deyəni,
Yanma bu gününə qatıb dünəni.
Nə sən başqasısan unudum səni,
Nə mən başqasıyam düşüm qarışıq!



## ÇATMIR QULAĞIMA SƏSİN-SORAĞIN

Çatmır qulağıma səsin-sorağın,
Tutulub qulağım kar olub, gülüm.
Mən sənə könlümü verib gedəndən,
Gen dünya başıma dar olub, gülüm.

Burda boğuluram həsrət içində,
Orda yaşayırsan necə bilmirəm!
Burda gecələrin biri bir ildi,
Orda ötüşürmü gecə, bilmirəm!

Ayrıldıq, xatirən qaldı yadımda,
O gündən üzümə qəm ələnibdi.
Getdiyin yollara düşən damcılar,
Mənim göz yaşımdı, səpələnibdi!

Qoru o sevdanı, qoru biraz da,
Məsum körpə kimi saxla gəlincə.
Sevgimdən xatirə tər çiçək kimi,
Qara saçlarına bağla gəlincə!

Tələsmə, gələrəm günün birində,
Gəlib qapınıza baxıb gedərəm!
Darıxıb yanına qayıtmaq üçün,
Təzədən orduya çıxıb gedərəm!

Ayrılıq yenə də qismətim oldu,
Kor olmuş taleyim belədi neynim.
Qaralmış külüm də göyə sovruldu,
Fələk öz bildiyin elədi neynim!



## GEDİB

Okeanın sahilində qalmışam
Mənim limanımın gəmisi gedib!
Burda arzulara bilet satılmır,
Qərq olub sulara hamısı gedib!

Səhra quruyanda qan deyib ağlar,
Müttəhim cəllada dur deyib ağlar,
Kim ki ayrılıqdan yar deyib ağlar,
Bilin ki, od düşüb zəmisi gedib!

Rasimi həsrəti yudu sərdi də,
Xəzan oldu fəsillərin dördü də,
Bu sevdanın ərköyündü dərdi də,
Kimisi doğmadı, kimisi gedib!



## ÇƏKİLİBDİ

Deyin, bu sevdanın rəssamı kimdi?
Gözün qarasına ağ çəkilibdi!
Perik düşüb gülüşləri üzündən,
Zəncirdən qoluna bağ çəkilibdi!

Ayrılıq görəndi:–başı daşlılar,
Sizi nə ovudar, ey təlaşlılar?!
Yığılın başıma, gözüyaşlılar,
Görək kimə belə dağ çəkilibdi!

Aşiqi nadana güldürdü həsrət,
Qəlbi para-para böldürdü həsrət,
Rasimin cismini öldürdü həsrət,
Yaxşı ki, xəyalı sağ çəkilibdi!



## HEÇ MƏNİ BAĞIŞLAMA...

Əgər bu qaladığın
Ocağın hisiyəmsə,
Gözlərinə yaş olub
Qəlbini inildədən
Bir kaman səsiyəmsə,
Canım, gözüm, dərdinə
Təsəlli deyiləmsə,
Heç məni bağışlama!

Əgər mənim yoxluğum,
Varlığım bilinmirsə,
Xətirinə dəydiyim
Yadından silinmirsə,
Yuxuna kabus olub,
Ömrünə sazağamsa,
Sinən üstə göynəyən
Çalın-çarpaz dağamsa,
Heç məni bağışlama!

Həyatına gəlmişdim
Səki bir dayaq olum.
Gəlməmişdim yaralı
Qəlbinə bıçaq olum,
Neynirsən məni axı?
Nankor çıxmışamsa,
Qurduğumuz evciyi



Dağıdıb yıxmışamsa,
Heç məni bağışlama!

Axı sən bir mələksən,
Adına ləkəyəmsə,
Qəhər səni boğunca
Unudulmaz tikəyəmsə,
Eşqin dəniz kimidir
Ləpə olammıramsa,
Bilirəm, dağ olammadım
Təpə olammıramsa,
Günahkarı özüməm!

Yoox, günahkar deyiləm,
Sənin sevgin böyükmüş.
Bu kiçik hissim, duyğum
O sevgiyə bir yükmüş.
Sən səmada, mən yerdə
Əlim sənə yetmirsə,
Eşitsən ki , ölmüşəm,
Sənə təsir etmirsə,
Heç məni bağışlama!



**DÜŞÜB**

Zərrələr sevincim, ümmanlar dərdim,
Ağlamaq qisməti gözümə düşüb.
Sənə o sevdanın xoş xatirəsi,
Kədəri, qüssəsi özümə düşüb.

Ayrı düşdüm istəyimdən, elimdən,
Qan qoxuyur gözlərimin selindən.
Hara qaçdım ayrılığın əlindən
Axtarıb tez tapdı, izimə düşüb.

Rasiməm, o gözlər əhdini dandı,
Könlüm yar əlindən qana boyandı.
Əllərini toxundurma, amandı,
Kənar dur, yanarsan közümə düşüb.



## MƏNİM NƏYİM QALIB SƏNƏ VERƏSİ

Mənim nəyim qalıb sənə verəsi,
Dəyib daşdan-daşa paralanmışam.
Bu odsuz-ocaqsız yanmış ürəklə
Həyatda yüz dəfə yaralanmışam.
Səni xoşbəxt eləməyə nəyim var,
Bu kövrək ömrüm də ovular bir gün,
Məndən nə qalıbsa sənə yadigar
O da dilənçitək qovular bir gün.
Bir qəmli könlüm var, nəyinə gərək,
Dərdinin üstünə dərd olacaqdı.
İki nəm gözüm var, nəyinə gərək,
Ağlayan gözlərin dörd olacaqdı.
Bir ülvi sevgim var, daha heç nəyim,
Sənə nə verəcək, deyə bilmirəm.
O məsum baxışın, dalğın gözlərin,
O yorğun görkəmin deyir sevirsən.
Öyrəş ağrısına qəmin, kədərin,
Çünki bir qayğılı şair sevirsən.



## GÜL-ÇİÇƏYİN YÜZÜ SƏNİ SORUŞDU

Görüş yerin ziyarətə getmişdim,
Gül-çiçəyin yüzü səni soruşdu.
Dedilər ki, niyə təkcə gəlmisən?!
Mən dinmədim, özü səni soruşdu.

Dağ çayının suyu daşıb, bulanmış,
Dedi onun etibarı yalanmış...
O zamandan ürəyimdə qalanmış
Eşqin odu, közü səni soruşdu.

Nə yaşamaq şikəst olmuş ömürlə?!
Bir taleyi qaraladın kömürlə.
Qayaların sinəsinə dəmirlə,
Yazdığımız yazı səni soruşdu.

Rasiməm, yuxudan oyandım birdən,
Belə baxdım nələr gördüm güzgüdən...
Alnımın qırışı, saçımdakı dən,
Həsrətinin izi səni soruşdu.

05.03.2014



## YAXŞI YOL

Bilirəm, bir daha dönməyəcəksən,
Səni çoxdan itirmişəm, yaxşı yol
Qorxma, ayrılığın ağrı, acısın,
Öz qəlbimə götürmüşəm, yaxşı yol

Üzü qara imiş ayım ilimdən,
Danışdırma, fəryad qopar dilimdən.
Yetim arzuların tutub əlindən,
Görüşünə gətirmişəm, yaxşı yol.

Rasiməm, dərdimi bəs kimnən bölüm,
Niyə yaxın gəlmir bir ucuz ölüm?!
Səni gözlərimin yaşıyla, gülüm,
Son döngədən ötürmüşəm, yaxşı yol.



## ƏZİZİM

Deyirsən ki, necə dözdün bir ayda,
Görəcəkli günüm varmış, əzizim.
Düz deyirsən, yaşamazdım bir gün də,
Daşdan betər canım varmış, əzizim.

Ayrılıqdan sızlayana gülmürdüm!
Tale səni niyə aldı, bilmirdim.
Sən görmədin, can verirdim, ölmürdüm,
Ərşə çatan ünüm varmış, əzizim.

Rasiməm, sevdamız sənsiz fağırdı,
Dili batdı, gözü səni çağırdı!
Görən dedi saçın nə tez ağardı,
Dedim il tək anım varmış, əzizim.



## VERMİSƏN

Neçə hökm oxudun, öz gedişinlə,
Dedilər qətlimə fərman vermisən.
Nakam məhəbbətin xatirəsinə,
Demisən qıymıram, aman vermisən.

Səsimi balasın itirmiş quşa,
Göz yaşımı bahar çağı yağışa,
Fəryadımı–ildırımda çaxışa,
Tüstümü–dağlara duman vermisən.

Fərhadın möhnətin yaşatmaq üçün,
Kərəmin həsrətin yaşatmaq üçün,
Habilin sənətin yaşatmaq üçün,
Göynəyən qəlbimə kaman vermisən.

Yeni bir əfsanə yaransın deyə,
Günahsız, müqəddəs görünsün deyə,
Bu eşq bədnəzərdən qorunsun deyə,
Yolunda Rasimi qurban vermisən!



## ÜRƏYİMDƏ

Qəhərləndim, dərd sinəmdə ağladı,
Döndü göz yaşına qan ürəyimdə.
Boğdum fəryadımı, boğdum səsimi,
Qorxdum oyanarsan sən ürəyimdə.

Könlümə acı da, şirin də birdi,
Tale səni birdəfəlik itirdi.
Yenə də dost-tanış təsəlli verdi,
Yas, matəm saxladım mən ürəyimdə

Rasiməm, dilimdə ahdı, amandı,
Sən xoşbəxtsən, mənim ömrüm talandı.
Get kimi sevirsən onu da yandı,
Daha alovlanma, sön ürəyimdə



## SƏNİNLƏ GƏLMİŞDİ, SƏNİNLƏ GETDİ...

Üzümdə gördüyün o xoş təbəssüm,
Səninlə gəlmişdi, səninlə getdi...
Ömrümə yazılan mənalı illər,
Səninlə gəlmişdi, səninlə getdi...

Nə bilirsən ürəyimdə nələr var,
Bir ah çəksəm göydə fələk alışar!
Müqəddəs diləklər, sonsuz arzular,
Səninlə gəlmişdi, səninlə getdi...

Bir gör haralara düşübdü yönüm,
Taladı ömrümü ayrılıq, dönüm.
Uşaq şıltaqlığım, ərköyünlüyüm,
Səninlə gəlmişdi, səninlə getdi...

İndi xoş gəlirmi, sənə halətim!?
Oxladın, qanına boyandı qəlbim.
Yatmayan xəyalım, sönməyən təbim,
Səninlə gəlmişdi, səninlə getdi...

Ürək əsim-əsim, qəlb əsim-əsim,
Daha yoxdu o sən görən həvəsim.
Bu fani dünyaya bir dəfə Rasim,
Səninlə gəlmişdi, səninlə getdi...



## TƏLƏSMƏ

Bu da yol ayrıcı, bu da son vida,
İndi günəş soyuyacaq, tələsmə.
Ayrılıq gələcək əlində qılınc,
Bizi qana boyuyacaq, tələsmə.

Həyat məni məngənədə əzdirib,
Əzabları ürəyimdə gəzdirib.
Çox deyirdin fikir məni bezdirib,
İndi gözün quruyacaq, tələsmə.

Bir yer boş qalacaq burada bizsiz,
Adımız daşlardan itəcək izsiz.
Eşqimiz susacaq səssiz, səmirsiz,
Körpə kimi uyuyacaq, tələsmə.

Rasim gözlərinə görünməyəcək,
Bu həsrət heç kimlə bölünməyəcək,
Xatirəm beynindən silinməyəcək,
Bir gün səni qınayacaq, tələsmə!



## BİZİ

Qismətimiz göyərmədi, daşıydı,
Xəyallar dəniztək boğurdu bizi.
Neçə ildi gizli yandıq tüstüsüz,
Ahımız göylərə sovurdu bizi!

Gah can dedik, gah da yara qanatdıq,
Bax belə yaşadıq, belə yaşatdıq...
Vüsalın qoynuna nə vaxt can atdıq,
Hicran arxamızca qovurdu bizi!

Rasiməm, gəl deyək qəlbimiz birdi,
Deməsinlər bunlar əhdin itirdi.
Eşqimiz kiminsə gözünə girdi,
Dur gedək, ayrılıq çağırdı bizi!



## KÖHNƏDİ

Bu eşq bizdən əvvəl dünyaya gəlib,
Həsrətin vurduğu yamaq köhnədi!
Bəs sən nə vaxtandır bu saraydasan!?
Aynanı toz basıb, otaq köhnədi!

Duymamışam, yazılmısan adıma
Harda idin, düşməmisən yadıma...
Tüstüm çıxmır, inanmadın oduma,
Külündən görünür, ocaq köhnədi!

Rasiməm, yaş ötür, bağrım dəlinir,
Yaddaş itir, xatirələr silinir!
Üzümdəki şırımlardan bilinir,
Göz yaşı yandırıb, yanaq köhnədi!



## SALDI

Arıya bal düşdü, bülbülə nalə,
Yadına nə nərgiz, nə lalə saldı!
Başı sevdalılar çöllərdə yatdı,
Onlar nə ev tikdi, nə qala saldı!

Züleyxa çarəni zindanda gördü,
Fərhad Şirin yazdı, daşa köçürdü.
Eşq nədi – duymayan kefini sürdü,
Həyat qananları məlala saldı!

Görən dedi rəngin niyə sarıdı,
Yara vurdu, həm də yara sarıdı.
Hara dönsəm könlüm ona sarıdı,
Rasimi odlara – bu hala saldı!



## BİR İLDİ

Bu gün sevdamızın yaşı tamamdı,
Əhdi-peyman bağladığım bir ildi.
Kirpiyimlə ocaqdan köz götürüb,
Yeri, göyü dağladığım bir ildi.

Gah küsüşüb eyni mahnı dinlədik,
Ayrı düşdük için-için inlədik.
Paralandıq, bütövləşə bilmədik,
Vüsal deyib ağladığım bir ildi.

Yanır, yanır kömürləşir, ərimir,
Əlindən tuturam, küsüb yerimir.
Yaman kürdü, neynəyirəm kirimir,
Mən bu eşqi saxladığım bir ildi.



## SƏNNƏN

Bir mahnı yaradaq gəl ikimiz də,
Sözü məndən olsun, bəstəsi sənnən.
Gəl isit, qoynumda buz kimi dondu,
Gedib əllərimin istisi sənnən.

Elə bil qəm-kədər bıçaqlaşırdı,
Yüz ilin həsrəti qucaqlaşırdı...
Sinəmdən bir ağrı uzaqlaşırdı,
Susurdu könlümün naləsi sənnən.

Rasiməm, bu ömür bitmiyə keşkə,
Tikan yolumuzda bitmiyə keşkə.
Tale üz döndərib getmiyə keşkə,
Qala bu məhəbbət xəstəsi sənnən.



## SOYUYUB

Vaxt olub həsrətin dönüb dumana,
Günəşim qaralıb, ayım soyuyub.
Payızım gəlməyib, qışım bitməyib,
Yazıma qar yağıb, yayım soyuyub.

Üzümdə donubdu yaşım, göyərib,
Bağrıma basdığım daşım göyərib.
İşə bax: – Ahımdan qışım göyərib,
Dilimdə harayım hayım soyuyub.

Rasiməm, vüsaldan pay istəmişəm,
Kar olmuş taledən hay istəmişəm.
Dilim quruyanda çay istəmişəm,
Xəyala dalmışam çayım soyuyub.



## SƏN SİLDİN

Yar deyib hıçqıran dəli sevdanın,
Saçını oxşayıb gözün sən sildin.
Mamır tutan daşa dönmüş könlümün
Üzündən həsrətin izini sildin.

Gülüşüsən o titrəyən dodağın,
İstisisən tüstüləyən ocağın.
Aynasın tor basmış bağlı otağın,
Çırağın yandırıb tozunu sildin.

Bir səni aradı, bir ana könlüm,
Bir sevə, bir duya, bir ana könlüm.
Bayquş yuvasıydı viranə könlüm,
Rasimin ömrünün hisini sildin!





## YƏQİN Kİ, ALNIMA YAZILAN BUDUR

Gözüm qurumadı ağlım kəsəndən,
Qəlbimdə uyuyur xatirələrim.
Etibarsız yarın dönüklüyündən,
Payız tək soyuyur xatirələrim.

Hələ görməmişəm sevinəm, güləm,
Dərdimə bir dərd də calandı bu gün.
Mənə əl vurmayın, közərən küləm,
Sən demə, nə varsa yalandı bu gün.

Telefonçu, telefonu bağladın nə tez,
Beli qırılaydı fələyin görüm...
Yaralı qəlbimi dağladın nə tez,
Qoymadın o qızın gileyin görüm...

Yanımda olsaydı otaq yoldaşım,
Təsəlli verərdi mənə arabir.
O köhnə radiodu könül sirdaşım,
Dərdimi dağıdır yenə arabir.

Sənin giley dolu hər bir sözünü
Xəncərlə sinəmə yazır mahnılar.
Görür ağlayıram, silir gözümü,
Yuxumu tərsinə yozur mahnılar.

Sənin kinayəndən, soyuqluğundan,
Həsrətin yenə də oduna düşdüm.
Qəm yenə ikiəlli tutdu yaxamdan,
İllər ayrısıtək yadına düşdüm.

Mən ağlar, gözü nəm, sənsə güləyən,
Saralıb solmuşam, ay etibarsız.
Xəfif bir soyuqluq duydum səsindən,
Nə tez yad olmuşam, ay etibarsız.

Zəhirmar da olsa içməliyəm mən,
Neynim, qədəhimə süzülən budur.
Kül olub dünyadan köçməliyəm mən,
Yəqin ki, alnıma yazılan budur.

Gedirsən, dön geri, öpüm gözündən,
Qaytar, ürəyimi aparma barı.
Bütün varlığımı yerin üzündən,
Bu son gedişinlə qoparma barı.

Rasiməm, qorxmuram kədərdən, qəmdən,
Mən bir qalayam ki, dərd yara bilmir.
Fələk nə istəyir mən bəxti kəmdən,
Axı nə verib ki, qaytara bilmir.



## KAŞ O GÜNLƏR OLAYDI

*Mikayıl Müşfiq üslubunda*

Kaş qayıdıb təzədən bir də uşaq olaydım,
Bir az şıltaq olaydım,
Qəmdən uzaq olaydım.
Bir qayğısız körpəyə anam layla deyəydi,
Bayatı söyləyəydi
Deyəydi ki, balama qurban olsun ilanlar,
Balam haçan dil anlar.
Gündə bir buğda qədər böyüyüb boy ataydım,
O sevdaya çataydım.
Qucaq-qucaq gülləri bağçalardan dərəydim,
Yollarına sərəydim.
Ümid dolu sevinclə görüşünə gələydim,
Həyəcandan əsəydim.
Görüşərkən, sevgilim, danışaydım güləydim,
Sənə nəğmə deyəydim.
Çəkiləydik dağların döşünə duman kimi,
Ulduz kimi, gün kimi.
Darıyaydı saçını dağların sərin mehi,
Arzuya bax, İlahi...
Səni daşa, qayaya, ağaca qısqanaydım,
Kənarda dayanaydım.
Kaş o günlər olaydı, səni təzdən sevəydim,
Eşqinlə əriyəydim.
Əfsus... indi gözümdən yaş axır almaz-almaz,



Məndə sevinc tapılmaz.
Axı sən də çiçəksən, qürbətdə dağ çiçəyi,
Solğun olar ləçəyi,
Kaş o günlər olaydı.
Hər gecə röyalarda görünəydim, görəydim,
Dərdinə şərik olub sevincinə girəydim.
Günəş çıxınca, gülüm, xəyala bürünəydim,
Yaralansam bu yolda eşqinlə sürünəydim,
Qucağında öləydim!



## AĞRIN ALIM

Küskün tale, dərd əlindən,
Yaralıyam, ağrın alım.
Görmürsənmi necə bəxti,
Qaralıyam, ağrın alım.

Bir xəbər ver o şəhərdən,
Bezdim, Allah, gecələrdən.
Dözəmmirəm...o gözlərdən
Aralıyam, ağrın alım.

Zarıyıram, ölmürəm ki,
Ağlayıram, gülmürəm ki,
Heç özüm də bilmirəm ki,
Haralıyam, ağrın alım.

Rasim ömrün vursa başa,
Yaşa ey yar, mənsiz yaşa...
Çalınmışam daşdan-daşa
Paralıyam, ağrın alım.



## SƏN DƏ

Qəlbim qan ağlayır, qara don geyir,
Fələk əyməyəni, ayrılıq əyir,
Nəmli baxışların yaxşı yol deyir,
Dur barı arxamca əl elə sən də...

Ahımdan, naləmdən dağlar yanacaq,
Kədər kövrələcək, qəm utanacaq,
Həmişə xatirən əziz olacaq,
Atıb alovlara kül eləsən də.

Rasim qurban verdi iki göz eşqə,
İndi tənha qalmış kimsəsiz eşqə,
Gəl bu arzu-kamsız, talesiz eşqə,
Ağlayaq... saçını yol elə sən də!



## BİR SƏRÇƏNİN VERDİYİ ÜMİD

Kəndimizdə daş karxanası tikintisi başlamışdı. Tez-tez karxananın yerini düzəltmək üçün partlayışlar aparılır, yeni texnikalar gətirilirdi. Bu texnikaları əvvəllər heç vaxt görməmişdim. Çox maraqlı idi... Partlayışlar zamanı əmələ gələn rəngbərəng, nazik naqillər tapıb qələm və məftildən düzəltdiyimiz "maşınları" bəzəyirdik. Ümumiyyətlə uşaqlıq dövründən ən çox yadımda qalan "maşına" olan həvəsim idi. Yeri gəlmişkən, bir dəfə bu həvəs məni atama (mən atamı dədə deyə çağırırdım) qarşı, onu qorxudub univermaqda gördüyüm "maşını" alması üçün "sui-qəsd" hazırlamağa məcbur etmişdi.

Atam işdən fasilə vaxtı evə gəlib, yeməyini yeyib çarpayıya uzanmışdı. Onun yatmasını gözlədim və həyətdən baltanı gətirib onun yanında dayandım. Onun yatdığından əmin olandan sonra baltanın yan tərəfini onun boynuna söykədim. Balta soyuq və ağır idi. Atam səksənərək oyandı, diqqətlə mənə baxdı. Deyəsən, qorxmuşdu. Həm də o bu mənzərəni anlaya bilmirdi, tərpənmirdi, uzun müddət düz gözlərimin içinə baxdı. Kişi lap şaşqınlıq içərisində idi, nə baş verdiyini anlamaq istəyirdi. Bir müddət sükutdan sonra atam bu sükutu öz təbəssümü ilə pozdu. Mən də çox qorxmuşdum. Bu hərəkətimin cavabı ağır cəza ola bilərdi. Atam sərt adam idi, bu səbəbdən bağışlanılmaq şansım yox dərəcəsində idi. Kişinin bu cür təbəssümünü gözləmirdim, ona görə də bu mənim ürəyimdə arzumun həyata keçməsinin ilk cücərtisini yaratdı və belə də oldu. O məni götürüb univermağa apardı, həmən maşını alıb evə gəldik.

İsti yay günləri idi, məktəbdən yay tətilinə buraxılmışdıq. Səhər yuxudan durub evdən çıxır, axşam düşəndə evə güclə qayıdırdıq. Valideynlərimiz bizi bütün günü axtara-axtara qalırdı. Amma buna hamı adət eləmişdi, daha çox onları bizim vaxtında günorta və axşam yeməyinə gəlməyimiz maraqlandırırdı. Uşaqların kimisi mal-qara və qoyun-quzu otarmağa gedir, kimisi isə müxtəlif işlərdə ailələrinə köməklik göstərirdilər. Bununla belə gözdən yayınıb tapşırılan işləri buraxaraq karxanada işləyən traktorlara, onların daşları necə parçalamasına tamaşa etməyə gedirdik. Valideynlərimiz bizi çəkindirsə də, biz öz bildiyimizi edirdik. Traktorlar torpağı qazdıqca torpağın ətri adama xoş təsir bağışlayırdı. Ümumiyyətlə, istər torpağı qazanda, istərsə də yeri şumlayanda ətrafa yayılan torpağın ətri mənim ən çox xoşuma gələn rayihədi. Bu qoxu mənə o qədər doğmadır ki, onu yalnız körpə qoxusu ilə müqayisə edə bilərəm. Hətta o zamanlar səbəbini bilməsəm də, düşüncəmi çuğlayan bir hiss yaşayırdım, bu hiss məni torpağın altını üstünə çevirən traktorları seyr etməyə, aclıq hissinə üstün gəlməyə sövq etmişdi. Traktorçu qırmızısifət, yekəpər, göygöz, girdəburun, məzəli bir kişi idi. O, işindən zövq alar, dodağı altında nəsə zümzümə edə-edə, sanki bu qoca dağlara meydan oxuyardı. Adama elə gəlirdi ki bu adam heç vaxt əsəbləşmir. Onun səbirliliyi, sakitliyi ona bu qayaları parçalamaq üçün xüsusi verilmiş vergi idi sanki. Bütün günü bu səhnəyə tamaşa edə-edə bir də görürdün ki, artıq axşamdı, traktorçu traktoru söndürüb evə getməyə hazırlaşır. Üst-başını çırpa-çırpa dönüb mənə baxaraq:

– Həə, bala, bu gün çox işlədik, ta gecdir, gedək evimizə-eşiyimizə.

Elə bil mən onun müdiri idim, yol uzunu kəndə tərəf gəldikcə gün ərzində gördüyü və sabahkı görüləcək işdən mənə həvəslə danışar, traktorunu tərifləyərdi. Sabahı



gün eyni səhnə yenidən təkrarlanardı və mən də, beləcə, günortalar yeməyi belə unudar, evdə isə naharı traktorçu ilə etdiyimi söyləyərdim. Bədənim zəifləmişdi, hiss edirdim ki, taqətim lap tükənib. Bu traktorçunun heç vecinə də deyildi, o yenə də həmişəki kimi gümrah və şən idi. Həmişəki kimi burnunda özü anlayacaq tərzdə mızıldanır, dağların sinəsində şırımlar açırdı. Mənim bədənimdə qaşınma əmələ gəlmişdi, gözlərim göynəyir, udquna bilmirdim, əhvalım korlanmışdı. Ayaqlarım getdikcə titrəyirdi, ayaq üstə güclə dayanırdım. Bunu traktorçuya bildirmək istəmirdim. Çünki o, vəziyyətimi bilsəydi, məni oradan qovar və valideynlərimə bu barədə xəbər verərdi. Bir gün daha özümü saxlaya bilmədim, traktoçu ilə sağollaşıb evə yollandim. Qızdırmam yüksəlmişdi, iştaham tamam itmişdi. Evə tez gəlməyim hamını təəccübləndirdi, amma heç kimə xəstələnməyim barədə demək istəmirdim. Əks halda məni məzəmmət edəcək, özümü xəstələndirdiyimə görə danlayacaqdılar. Buna da belə vəziyyətimdə nə həvəsim, nə də halım var idi.

Qonşuluqda bir yaşlı qadın yaşayırdı. Bu qadın, mən bildiyim qədər, iki dəfə ailə qurmuş, hər ikisi uğursuz olmuşdu. Deyilənə görə, bir dəfə əkiz uşaq doğmuşdu. Əkiz doğduğuna görə bu qadında xüsusi bir kəramət olmasına inanırdılar. Danışırdılar ki, bu qadın bəzi mərəzləri ya tüpürərək, ya da üfləyərək sağaldır.

Elə bu cürə "istedadına" görə Gülşən xala mənim də həkimim olacaq. Əslində Gülşən xala istedadsız və xüsusi komplekslərə malik qadın idi. Balacaboy, fındıqburun və girdəsifət bu qadın həmişə burnunu ovuşdura-ovuşdura uzun-uzadı söhbət edər, bəzən də söhbətləri o qədər bir-birini təkrarlayardı ki, lap adamın yuxusu gələrdi. Atam ondan axırıncı ərindən boşanma səbəbini soruşmuşdu. O da ərinin molla olduğunu söyləmişdi. Boşanmasına

isə ərinin yüksək səslə Quran oxuması və bunun da ona qorxunc gəlməsi olmuşdu. Elə həmin gecədən qaçıb kəndə gəlmiş və geri qayıtmamışdı. Bir dəfə anam Gülşən xalagilə gedirdi. Mən də anamın arxasınca düşüb getdim, elə evin kandarından içəri daxil olanda o mənim sinəmdən var gücü ilə itələyib yerə sərdi. Başım yerə dəydi və az qala huşumu itirəcəkdim. Anam bərk hirsləndi və ona ağır sözlər işlətdi. Gülşən xala isə səbəbini evinə kişi buraxmaması ilə izah etdi. O zaman mənim 5–6 yaşım olardı. Gülşən xalanın kamançadan zəhləsi gedərdi. Qəribə olsa da, o bunun səbəbini tərbiyəsizlik kimi qiymətləndirər, özünəməxsus şəkildə izah edərdi. Maraq dairəsi çox məhdud adam idi, bütün yayı meşədən ancaq odun toplayar və bostanda kartof əkərdi.

Gülşən xala axşamlar bizə tez-tez gələrdi, gecəyə qədər atamla keçmişdən söhbət edərdilər. Elə mənim xəstəliyimə də o diaqnoz qoymuşdu – "qızılca". Bəli, mən qızılcaya yoluxmuşdum, özü də ağır formada. Gülşən xala öz müalicə taktikasını göstərərək məni qırmızı yorğana bükməyə və işığın da ətrafına qırmızı parça bağlamağa göstəriş verdi.

Doğrudur, atam, könülsüz olsa da, göstərişə etiraz etmədi, çünki o belə mövhumata qəlbən inanmırdı. Günügündən halım ağırlaşırdı, ayağa qalxa bilmirdim. İştaham tamamilə kəsilmişdi, su belə içə bilmirdim. Özümə güzgüdə baxıb tanımadım. Gözlərim çuxura düşmüş, burnum sivriləşmişdi. Gecələr boğulurdum, artıq ölüm qorxusu məni bürümüşdü. Sinəmin üstünə elə bil ağır daş qoymuşdular, çətinliklə nəfəs alırdım. Gülşən xala bir dəfə dedi ki, bu uşağa bir stəkan eşşək südü versəydiniz, indi çoxdan sağalmışdı. Bu sözə atam bərk əsəbləşdi və dönüb mənə baxdı...



Atam möhkəm iradəyə malik adam idi. O, odun-alovun içindən çıxmışdı. Demək olar ki, onun görmədiyi əzab-əziyyət qalmamışdı. İbtidai təhsilli olmasına rəğmən ondan çox həyat bilgiləri öyrənmişəm, unutduqlarım da oldu, əhəmiyyət vermədiklərim də...

Buna görə özümü bağışlaya blmirəm indi də... Atamın uşaqlıq dövrü Sovet İttifaqının ilk qurulduğu illərə təsadüf etmişdi. Ömrünü həyatla, sözün həqiqi mənasında yaşamaq uğrunda mübarizədə keçirmişdi. O qədər təlatümlü bir ömür yaşamışdı ki, onu heç nə ilə təəccübləndirmək mümkün deyildi. Təqribən iyirmi yaşı olanda Qarabağdan, ailələri acından ölməsin deyə kürəyində un gətirdiyi zaman çinovniklər onu yaxalayıb İkinci Dünya müharibəsinə aparmışdılar. Bədəni ağ mərmər kimi parıldayırdı, amma kürəyində, sinəsində, ayaqlarında müxtəlif ölçüdə və xarakterdə ona yaxın yara çapıqları var idi. Baxanda bu bədən baltalanmış ağ odun parçasını xatırladırdı. Güclü intuisiya sahibiydi, dəfələrlə dediyi sözlər, qabaqcadan bir hadisənin baş verəcəyi barədə fikirləri öz təsdiqini tapırdı. Dünya malında zərrə qədər də olsa gözü yox idi. Deyirdi: – Ay bala, bu gördüyün imarətlər, var-dövlət hamısı bu fani dünyada qalacaq, biz isə bu dünyadan beş arşın bez aparacağıq, o da hər adama qismət ola, olmaya. Yaşlı bir adam dünyasını dəyişəndə onu camaat aparıb şəriət qaydaları ilə dəfn edərkən həmən adama xoşbəxt adamdı, deyərdi. Deyərdi: – Yüzlərcə gənc görmüşəm ki, onları müharibədə bir məzarda (belə məzarlıqlar "qardaşlıq məzarlığı" adlanır) traktorla dəfn eləyiblər.

Məhəlləmizdən bulaq suyu metal boru ilə gecə-gündüz fasiləsiz axıb gedirdi, atam bizə bu suyun qədrini

bilmədiyimizi deyəndə, biz o zaman onu anlamırdıq. Sonralar içməli suyu (hərçənd həmən su keyfiyyətcə çox əvəzedilməz su imiş...) şəhərdə pulla alanda atamın nəyi demək istədiyini, gec də olsa, başa düşdüm.

Demək olar ki, o, təpədən dırnağa hikmət dolu, zəngin həyat təcrübəsinə sahib, dərsini yaşadıqlarından almış, ustadı–qocaman və yıxılana acımayan, basdığını əhf etməyən bu təlatümlü həyat olmuş bir filosof idi. İki dəfə evlənmişdi, birinci nikahdan üç övladı dünyaya gəlmişdi; bir oğlan, iki qız. Oğlan uşaqkən xəstəlikdən dünyasını dəyişmişdi. Birinci arvadı yaşadıqları kəndə başqa kənddən gəlin gəlmişdi, burada heç bir qohumu yoxuydu, ona görə də həmişə özünü qərib hiss edirdi. Elə atam da bu kənddə gəlmə olduğundan, onların hər ikisi qərib sayılırdı. Kənd balaca olduğundan hamının bir-birinə qohumluğu çatırdı. Bir gün kənddə keçirilən kiçik toy məclisində bu qadına “sənin ki, oğlun yoxdur, sən ki, kiçik toy eləmiyəcəksən, bəs nə əcəb gəlmisən” – deyə istehza eləmişdilər. Elə o andan bu qadın ərinə evlənməsini israr etmiş və beləliklə atam uzun-uzadı götür-qoy elədikdən sonra ikinci dəfə ailə qurmuşdu. Bu nikahdan üç oğlan, bir qız dünyaya gəlmişdi. Sonradan oğlanlardan böyüyü dörd yaşında zəhərlənərək dünyasını dəyişmişdi. Atam bu ağır itkidən çox sarsılmışdı, həyat onu yenə də gözləmədiyi anda belə ağır sınağa çəkmişdi.

Atam öz hisslərini gizlədən adam idi, istər sevinc olsun, istərsə də kədər olsun. Mən bu xüsusiyyəti onda lap ağlım kəsəndən hiss eləmişdim, ancaq indi kişi mənim xəstələnməyimə, belə ağır vəziyyətə düşməyimə çox narahat olmuş və çox fikirli görünürdü. Çalışırdı ki, halımın ağırlığını mən hiss eləməyim, bəzən buna



öz məzəli sözləri ilə nail olurdu. Nədənsə mənim də gözlərim elə onun sifətinə zillənmişdi, sanki mən onun üzündə olan ifadələrdən öz vəziyyətimin necə olmasını qiymətləndirirdim... O da məni hiss edir, özünü elə aparırdı ki, guya hər şey qaydasındadır. Bu adamın daxili o qədər zəngin idi ki, məni istədiyi kimi öz hisslərinə, istəklərinə tabe eləməyi bacarırdı. O, baxışları ilə mənə elə bir daxili inam hissi aşılamaq istəyirdi ki, bu inamla mən xəstəliyə qalib gəlməyi bacara bilim. Bədənim çox üzüldüyündən bu o qədər də asan iş deyildi, amma atam buna ümidli, həm də israrlı idi. Mənim özüm də atamı qarşımda aciz və sınıq görmək istəmirdim, çünki o buna dözə bilməzdi, nə qədər iradəli və polad kimi olsa belə. Bir də ki, o belə bir faciəni illər öncə qardaşımı itirəndə yaşamışdı axı. Bizim düşüncələrimiz qarşılıqlı idi və bir-birimizi yaxşıca anlayırdıq. O nə isə düşünür, otaqda var-gəl eləyir, tez-tez çölə çıxıb içəri keçir, məni ayağa qaldırmaq üçün bəhanələr axtarırdı. O məni indiyə qədər heç vaxt tərifləməmişdi. İndi isə danışıqlarında eşidiləcək səslə hərdən mənim qüvvətli və qorxmaz olmağım barədə sözlərə tez-tez yer verirdi, amma bunu elə ustalıqla edirdi ki, guya mən bu söhbəti eşitmirəm.

Uşaqlıqda biz rezindən sapandabənzər bir alət düzəldirdik, bu alətin “qovluğuna” kiçik daş parçaları qoyaraq ağacdan hazırlanmış haçaya bərkidilmiş rezin qollarını dartıb buraxanda, daş sürətlə “qovluqdan” çıxaraq uzaq məsafəyə gedərdi. Həmən alətlə hədəfi nişan almaq da mümkün idi (alətin adına “raqatka” deyərdik). Ta biz “raqatka” ilə nələr eləmirdik, yarışlar təşkil edir, şüşələri düzüb nişan alırdıq. Bəzən atdığımız “mərmilər” evlərin, yaxud tövlələrin pəncərə şüşələrnə dəyib onları

çilikləyirdi. Ona görə də valideynlərimiz "raqatka"nın istifadəsini yasaq elan eləmişdilər. Biz isə sevimli məşğuliyyətimizdən əl çəkmir, əksinə, yarıgizli, yarıaşkar sərçə ovu ilə məşğul olurduq. Əgər kim bir sərçə vursaydı, həmən uşaq kənddə uzun müddət qəhrəman kimi gəzərdi, uşaqlar arasında yüksək qiymətləndirilərdi. Sanki bu adam bir ceyran ovlamış kimi ağızdolusu hər gələnə danışardı. Mənə isə belə qəhrəmanlıq hissini yaşamaq hələ qismət olmamışdı, çox istəmişdim ki, bir sərçəni ovlayıb gəlim atamın qarşısında qürurla dayanım və mən bu "silahı" elə-belə boşuna gəzdirmədiyimi ona göstərim... Amma bu "xoşbəxtlik" mənə nəsib olmamışdı. İndi də mənə elə gəlir ki, əgər atam yaşasaydı, o zaman nail ola bilmədiklərimi indi eləsəydim, yenə də həm o, həm də mən ozamankı duyğuları yaşayardıq. Bu bir həqiqətdir ki, insan nə qədər yaşlansa da, hissləri və duyğuları sanki yaşlanmır, qocalmır. Uşaqlıq adamı həmişə müşayiət eləyir, öz əlçatmaz fantaziyalarıyla..

Sonralar mən böyüdükdə dərk elədim ki, insan ona verilən ömrün fani olduğunu, gec-tez müvəqqəti həyatının bitəcəyini bilə-bilə necə olur ki, daima mübarizə aparır, çətinliklərə sinə gərir, ağır məhrumiyyətlərə dözür və nəhayət – yaşayır, yaradır. Əslində hər bir insanın daxilində bir ümid, bir inam yaşayır. Elə insanın ömrü onun içərisində olan ümidin ömrü qədərdir. Ümid, inam bitən an insan həyatının mənasızlığını dərk edir, beləliklə, onun nəinki yaşam mücadiləsi başa çatır, hətta o, mənəvi ölüyə çevrilir. Atam da mənim içimdə bax bu inamı yaratmaq istəyirmiş..!

Atam sabah erkən evdən çıxmış, günorta idi, hələ geri qayıtmamışdı. Qapı açıldı, atam evə daxil oldu. Onun



üzündə xoş bir təbəssüm sezilirdi. Əllərini arxasında tutmuşdu, evə daxil olub elə qapının önündə dayanmışdı. Xeyli qapının önündə dayanıb mənə baxdı və birbaşa mənim uzandığım çarpayının yanına gəldi. Çox şad görünürdü, qəpik tapmış uşaq kimi sevinirdi. Ətrafı sükut bürümüşdü, hamı kişinin qeyri-adi hərəkətlərinə tamaşa edirdi. O başını mənə tərəf əyərək sakicə, xəfif bir səslə:

– Oğlum, mənim əlimdəki bilirsənmi nədir? –deyə soruşdu. Bu anda heç düşünməyə halım olmasa da, məni maraq bürmüşdü, demək olar ki özümü unudub atamın əlindəkinin nə olduğunu bilmək istəyirdim. Ancaq ağlıma heç nə gəlmirdi.

– Bilmirəm– deyə xırıltılı səslə cavab verdim.

– Bax, əlimdəki sərçədir, onu sən vurmusan..! deyə mehribancasına əyilərək alnımdan öpdü.

Məni heyrət bürümüşdü. Nə baş verdiyini anlamırdım. Hətta bir anda mənə elə gəldi ki, atam məni məzəmmət eliyəcək, deyəcək ki, sən yasaq olduğu halda, "raqatka" ilə sərçəni nə üçün vurub öldürmüsən. Ancaq onun məni adət etmədiyim mehribanlıqla danışdırması, sanki məni buna görə təbrik etmək istəməsi başqa şeydən xəbər verirdi. O, yenidən mənə tərəf əyilərək gözlərimdən öpdü və sərçəni ot tayasının üstündən tapdığını mənə söylədi.

Mən atamdan sərçəni nə vaxt, necə vurduğumu soruşdum. Atamın üz cizgiləri o qədər ciddiləşmişdi ki, onun həqiqət söyləməsi məndə artıq heç bir şübhə doğurmurdu.

– Mənim qəhrəman oğlum,–deyə atam sözlərinə davam etdi: – Bu sərçəni sən xəstələnməmişdən qabaq vurmuşdun, mən buna şahidəm. Özü də sən sərçəni xeyli uzaq məsafədən vurdun. O zaman mən həmən ot tayasının

yanında idim, sən məni görmürdün. Dedim, görək oğlumun məharəti necədir? Axı məni görsəydin, sən heç o sərçəni vurardınmı? Əksinə, əlindəki "raqatka"nı gizlədərdin. Həə, sən "atəş" açdın, baxdım ki, həmən bu sərçə tayanın üstünə düşdü. Mən də indi onu tapıb sənin yanına gətirdim.

Bu sözlərdən mənim solmuş və bozarmış yanaqlarım isinməyə başladı, axı mənə uzun müddət həsrətində olduğum bir qiymət verilmişdi! Həm də bu qiymət gözləmədiyim, ağlımın ucundan belə keçirmədiyim halda atam tərəfindən verilmişdi..! Sinəm genişləndi, gözlərimə elə bil işıq gəldi. Özümdən asılı olmadan baxdım ki, ayaq üstə durub atamı qucaqlamışam.

Xəstələnəndə "raqatka"nı uzandığım çarpayıda, yastığımın altında gizlətmişdim. Qeyri-ixtiyari olaraq "raqatka"nıda əlimə götürmüşdüm. Atam bayırda xeyli sərçə olduğunu və onlardan birini yenidən vurmamı istədi. O, mənim cavabımı gözləmədən qolumdan yapışaraq həyətə çıxardı. Bayırda günəşli hava var idi, amma toyuq-cücədən savayı heç bir dənə də olsun sərçə görünmürdü. Atam əvvəlcədən ciblərinə topladığı kiçik daş parçalarını mənə verərək, bununla sərçə vurmamı xahiş etdi.

– Bax görürəm tayanın üstündən tapdığım sərçəni vurduğuna inanmırsan, elə isə indi vur, görək necə nişan alırsan, – deyə o, üzərimə məsuliyyət qoyur, məndə özünütəsdiq hissi oyadırdı. Bax eləcə bu andan məndə ağlagəlməz bir şəkildə qüvvət yaranmış, xəstəliyimi unutmuşdum. Bir neçə saat evə qayıtmadım, məqsədim heç olmasa bir sərçə vurmaq, ovlamaq idi. Artıq aclıq hiss edir, yemək istəyirdim. Hərarətim də normallaşmışdı,



deyəsən "ova" çıxmaq mənə düşmüşdü. Amma sərçə vurmadan evə qayıtmaq istəmirdim, sərçəni vurmaq isə o qədər də asan deyilmiş.

Evə döndüm, artıq gec idi, sabahı gün yenidən sərçə ovlamaq ümidi ilə...

Bəli, mən ertəsi gün də, beləcə, əlimdə "raqatka" sərçə qovalayırdım, ümidim isə heç olmasa bir sərçə ovlamaq idi. Xəstəliyim isə artıq mənimlə vidalaşmışdı, düzünü desəm, mən xəstəliyi unutmuşdum. Məni isə növbəti sabaha, heç olmasa, bir sərçə ovlamaq ümidi aparırdı...

Çox-çox sonralar və xəstəliyim tamamilə sağalandan sonra bildim ki, atamın bu sərçə oyunu məni yatağımdan qaldırmaq üçün uydurduğu bir oyun imiş, həm də çox ustalıqla..



## FOTOYADDAŞ



*Kapitan Rasim Abdullayev*



*Rasim Abdullayevin uşaqlığı*



*Sağdan: Rasim Abdullayev, bacısı Aybəniz xanım, yaxın qohumları Vəsilə xanım və Surxayla*



*Rasim Abdullayev (sağdan 1-ci) tələbə yoldaşları ilə*



*Sağdan: Rasim Abdullayev, bacısı Yeganə xanım və qardaşı Əvəzlə toy mərasimində*



*Rasim Abdullayev yaxın qohumu ilə*



*Rasim Abdullayev bacısı Aybəniz xanımla Tovuzda*



*Rasim Abdullayev övladları (sağdan)*
*İslam və Miryaqubla*



*Rasim Abdullayev iş yoldaşları ilə*



*Rasim Abdullayev silahdaşları ilə cəbhəyə yola düşərkən.*
*26 sentyabr 2020-ci il*



*Rasim Abdullayev yoldaşları ilə döyüş bölgəsində*




*Rasim Abdullayevin Usta dərəcəli həkim nişanı*




*Fəxri medalları*



*"Vətən uğrunda" medalı (ölümündən sonra). 15 dekabr 2020-ci il*



*"Şuşanın azad olunmasına görə" medalı (ölümündən sonra). 29 dekabr 2020-ci il*

## Kitabın içindəkilər


Mahir hərbçi, mahir insan, mahir şəhid ........ 5
Polkovnik-leytenant Rasim Abdullayevin ömür yolu ........ 8
**ŞEİRLƏR**
Deyirlər ........ 13
Gəzdirirsən ........ 14
Məzar ........ 15
Yaşadım ........ 16
Gəlmir ........ 17
Həsrətin ........ 18
Bağlamışıq ........ 19
Düşüb ........ 20
Qandı ........ 21
Quruyub ........ 22
Veriləydi ........ 23
Ta... ........ 24
Dərdimi ........ 25
Yaramaz bizə ........ 26
İnsan ........ 27
Gözlərim ........ 28
Olmuşuq ........ 29
Məhəbbət haqqı ........ 30
Dağlar ........ 31
Eləyir ........ 32
Yaddaşımda ........ 33
İtirdin ........ 34
Gəraylı ........ 35
Bir az məni tut dilə ........ 36
Hardasan, ay küskünüm ........ 37
Səni ........ 38
Məni ........ 39
Yeridi ........ 40
Getdin ........ 41
Yalandı ........ 42
Gözlər ........ 43
Qaytar ........ 44
Ağlayıram ........ 45
Oy ana ........ 46
Yenə də ........ 47
Əgər bu sevgini... ........ 48
Deyirdin ki... ........ 49
Rasim həkim ........ 50
Ay ustad ........ 51
Xınalı kəklik ........ 52
Milli Daşqın Ziyəddinoğlu ilə şeirləşməyimizdən ........ 53
Çatmır qulağıma səsin-sorağın ........ 56
Gedib ........ 57
Çəkilibdi ........ 58
Heç məni bağışlama ........ 59
Düşüb ........ 61
Mənim nəyim qalıb sənə verəsi ........ 62
Gül-çiçəyin yüzü səni soruşdu! ........ 63
Yaxşı yol ........ 64
Əzizim ........ 65
Vermisən ........ 66
Ürəyimdə ........ 67
Səninlə gəlmişdi, səninlə getdi... ........ 68
Tələsmə ........ 69
Bizi ........ 70
Köhnədi ........ 71
Saldı ........ 72
Bir ildi ........ 73
Sənnən ........ 74
Soyuyub ........ 75
Sən sildin ........ 76
Yəqin ki, alnıma yazılan budur ........ 77
Kaş o günlər olaydı ........ 79
Ağrın alım ........ 81
Sən də ........ 82
Bir sərçənin verdiyi ümid ........ 83
Fotoyaddaş ........ 94

**Rasim Abdullayev**
**Mən belə doğuldum, belə yaşadım**
Bakı, "Aspoliqraf", 2022

**Naşir**
Elşən Məmmədov

**Müəllif**
Rasim Abdullayev

**Texniki redaktor**
Məleykə Əsgərova

**Dizayner**
Mirəziz Sadıqzadə

**Korrektor**
Mətanət Kərimli

Çapa imzalanmışdır: 04.08.2022.
Format 60 x 84 $^{1}/_{16}$. Fiziki çap vərəqi 7.0
Sifariş 25. Tiraj 650.

**"Aspoliqraf LTD" MMC-nin** mətbəəsində
çap olunmuşdur.

Bakı, AZ1052, F. Xoyski küç., 151
e-mail: aspoligraf.ltd@gmail.com
Tel.: (+994 12) 567-81-28/29



Kitabda 44 günlük Vətən müharibəsində şəhid olmuş, vətənpərvər polkovnik-leytenant, həkim Rasim Abdullayevin müxtəlif dövrlərdə yazdığı şeirləri toplanmışdır.

ASPOLİQRAF

ISBN 978-9952-564-26-6

9 789952 564266